BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# SAN-STEFANO KONFRANSINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN BÖYÜK DÖVLƏTLƏR TƏRƏFİNDƏN DƏSTƏKLƏNMƏSİ

**Z.C.ƏMRAHOV**
***Bakı Dövlət Universiteti***
*ziyad1980@mail.ru*

*Məqalə olduqca aktual bir mövzuya həsr edilmişdir. Belə ki, müəllif XIX əsrin II yarısından başlayaraq Osmanlı imperiyasında meydana çıxan «Erməni məsələsi»ndən bəhs edir. Müəllif göstərməyə çalışır ki, 1877-1878-ci illər rus-türk müharibəsi «erməni məsələsi»nin beynəlxalq münasibətlər sisteminə daxil edilməsi üçün bir zəmin yaratmışdır. Eyni zamanda məqalədə o da xüsusi şəkildə vurğulanır ki, Çar Rusiyası özünün regional və geostrateji maraqlarını gerçəkləşdirmək üçün erməni amilindən istifadə etməklə San-Stefano konfransına (1878-ci il 3 mart) ermənilərlə bağlı 16-cı maddəni daxil edə bilmişdir. Türkiyə tarixçilərinə əsaslanan müəllif qaranlıq məqamlara aydınlıq gətirir, oxucuları Osmanlı imperiyasında böyük dövlətlərin toqquşan iqtisadi və siyasi maraqları fonunda meydana çıxan süni məsələ ilə tanış edir.*

XIX əsrin 70-ci illərindəki beynəlxalq hərbi-siyasi şərait Osmanlı dövlətinin zəiflədiyini nümayiş etdirdi. Bir tərəfdən buna imperiya daxilində yaşayan xristian azlıqların müstəqillik uğrunda mübarizəsi zəmin hazırlayırdısa, digər tərəfdən yeni torpaqlar və ərazilər tutmaq uğrunda mübarizə böyük dövlətlər arasında ziddiyyətlərin kəskinləşməsi ilə özünü büruzə verirdi ki, bu ziddiyyətlərin də əsas düyün nöqtələrindən biri Osmanlı imperiyasının strateji-coğrafi mövqeyi idi. Əslində isə qeyd etmək yerinə düşərdi ki, Aralıq dənizi və Fars körfəzi arasında yerləşən ərazidə Osmanlı Türkiyəsinin nüfuzunun zəiflədilməsinə nail olmaq əsas hədəf kimi qarşıya qoyulmuşdu. Bu mübarizədə fəal iştirak edən İngiltərə, Fransa, Almaniya, Rusiya, Avstriya-Macarıstan və İtaliya idi [6, 107]. Krım müharibəsində məğlub duruma düşən Rusiya isə əvvəlki itirilmiş mövqelərini daha çox hərbi yollarla həll etməyə üstünlük verirdi. Belə hərbi yollar isə Osmanlı imperiyasında yaşayan ermənilərin də "problemlərinin" qabardılması üçün şərait yaradırdı. Məhz Rusiyanın Osmanlı ilə çoxsaylı müharibələrindən birində (1877-1878-ci illər müharibəsində) qazandığı ciddi üstünlüklər digər dövlətləri, xüsusilə İngiltərəni xeyli narahat etməyə başladı. "Şərq məsələsi"nin həllinə çalışan başlıca qüvvələr (Rusiya və İngiltərə) arasındakı rəqabət daha da gücləndi. Onlar özlərinin geostrateji maraqlarını gerçəkləşdirmək məqsədilə Osmanlı imperiyasının mövcud ağır durumundan faydalanmaq üçün milli azlıqlardan, xüsusilə ermənilərdən məharətlə istifadə edə bildilər.

Hələ XIX əsrin 30-cu illərindən Osmanlı imperiyasında xüsusi canfəşanlıqları ilə seçilən erməni toplumu isə bu fürsətin "göydəndüşmə" olduğunu anlayıb "ciddi iş başına" keçdilər. Nəticədə Rusiyanın hərbi əməliyyatlarda qazandığı ciddi üstünlüklər və qayğısı sayəsində San-Stefano müqaviləsinin 16-cı maddəsi ərsəyə gəldi. Bununla

da, "erməni məsələsi" dövlətlərarası münasibətlər sisteminə daxil edildi. Bu, "ermənipərəst" maddələrlə bir "Avropa problemi" halına salınan "erməni məsələsi" o vaxtdan etibarən dünya siyasətini bu və ya digər istiqamətdə "məşğul etməkdədir".

Türkiyə tarixşünaslığında Osmanlı imperiyasının XIX əsrin sonu-XX əsrin əvvəllərinə xüsusi maraq yetirən müəlliflərdən biri Salahi Sonyeldir. Müəllifin 2000-ci ildə Ankarada ingilis dilində Türk Tarix Cəmiyyəti (Turkish Historical Society) tərəfindən nəşr olunmuş "The Great War and The Tragedy of Anatolia (Turks and Armenians in the maelstrom of major powers)" ("Birinci dünya müharibəsi və Anadolunun faciəsi. Türklər və ermənilər əsas dövlətlərin burulğanında") adlı əsəri XIX əsrin II yarısından etibarən Osmanlı imperiyasının düşdüyü çətinlikləri, 1877-1878-ci illər rus-türk müharibəsi və onun nəticələrini, Böyük Dövlətlərin müstəmləkələr uğrunda mübarizəsini, eləcə də Birinci dünya müharibəsi illərində erməni toplumunun Osmanlı ərazisindəki iğtişaş dalğalarını öyrənmək üçün əhəmiyyətlidir. O, əsərin giriş hissəsində çox dəyərli faktlar verməklə oxucuları sanki riqqətə gətirir. Müəllif yazır: "Çar I Pyotr (1689-1725) onlardan (ermənilər nəzərdə tutulur – **Z.Ə.**) əhalisinin əksəriyyəti müsəlman olan Qafqazı işğal etmək üçün istifadə edirdi. Rusiyadan asılı olan və onların köməyini gözləyən ermənilər Pyotrun köməkliyi ilə təşkil edilmiş Rusiyanın Qafqaza ilk yürüşlərində iştirak etməyə başladı. Bununla belə, zəngin vardövlətə sahib olacaqları vədini verən çar öz vədindən geri çəkildi" [9, 5].

Türkiyə tədqiqatçısı Salahi Sonyelin səkkiz fəsildən ibarət olan əsərinin birinci fəsli "Genesis of the Eastern Question" ("Şərq məsələsinin genezisi") adlanır. Fəslin adından da göründüyü kimi, müəllif "erməni məsələsi"ni "Şərq məsələsi"nin tərkib hissəsi kimi xarakterizə edir. Müəllif birinci fəsli də öz növbəsində 5 yarımbaşlığa bölmüşdür. Birinci fəslin birinci yarımbaşlığı "1877-1878-ci illər rus-türk müharibəsi" adlanır. Müəllif XIX əsrin II yarısından Osmanlı imperiyasının düşmüş olduğu iqtisadi və siyasi vəziyyəti başdan-başa təsvir edərək yazır: "XIX əsrin sonlarına doğru Osmanlı imperiyasının tənəzzülü sürətləndi. Bu tənəzzüldən yararlanmağa çalışan imperialist dövlətlər səbirsizliklə "Avropanın Xəstə Adamı"nın cəsədini bölüşdürməyi gözləyirdilər. Öz növbəsində hadisələri sürətləndirmək üçün onlar imperiyada, xüsusilə Balkanlarda milli hərəkatları dəstəklədilər. Nəticədə, Yaxın və Orta Şərqdə, xüsusilə Balkanlarda, İstanbul və Boğazlarda nəzarəti ələ keçirmək, daha sonra Osmanlı imperiyasının şərq əyalətlərində öz maraqlarını təmin etmək məqsədilə bu dövlətlərdən bəzilərinin açıq və ya gizli şəkildə yardımları ilə 1870-ci illərdə Bolqarıstan və Hersoqovinada üsyanlar başlandı. Son addımı atmaqdan onları çəkindirən yeganə məqam isə Osmanlı imperiyasının dağılacağı təqdirdə onun saysız-hesabsız mülklərinin münaqişə yaratması idi. Bununla belə, imperiya saxlanılsaydı, daha da zəifləyərdi, bu isə iqtisadi və ticarət məqsədlərinə cavab vermirdi, başqa sözlə, Böyük Dövlətlər Osmanlı imperiyasının tənəzzülü üçün yol açırdı" [9, 14]. Göründüyü kimi, müəllif Osmanlı imperiyasının tənəzzülü prosesini genişlənməkdə olan ekspansionist maraqlar fonunda izah etməyə çalışır, müharibədə yalnız Çar Rusiyasının deyil, bütün dövlətlərin maraqlı olduğunu göstərməyə cəhd edir.

Kitabda rus-türk müharibəsi ərəfəsində erməni din xadimlərinin Böyük Dövlətlərin diplomatik nümayəndələri ilə görüşünə də yer verilmişdir. Orada oxuyuruq: "Müharibə başlamazdan əvvəl 1876-cı ilin sentyabrın əvvəllərində Osmanlı imperiyasında yaşayan Erməni Qriqorian icmasının rəhbərləri Balkanlarda yaranmış vəziyyətdən istifadə edərək ermənilər arasında narazılıq dalğasını sürətləndirməyə baş-

ladılar. Britaniyanın səfiri Elliota yüksək çinli erməni tərəfindən məlumat verildi ki, narazılıqlar Rusiyanın təhrikləri ilə yaradılır. Erməni Patriarxı Nerses Vartabedian dekabrın 6-da səfirlə görüşəndə Balkan hadisələrini müzakirə etmək üçün toplanacaq İstanbul Konfransında (12 Dekabr 1876-20 Yanvar 1877) Portadan onlara da eyni hüquqların verilməsi üçün öz icmasının müraciətlərini xatırlatdı, o, səfirə məlumat verirdi ki, onun xalqı çox narahatdır, əgər Avropa dövlətlərinin rəğbətini qazanmaq üçün üsyan qaldırmaq lazımdırsa, bunun elə də çətin olmayacağını xəbərdar edirdi" [9, 15]. Göründüyü kimi, erməni məkri burada da sakit dayanmamışdı. Əslində "zülm raportları" adlandırılan belə şikayətnamələr çox xırda məsələlərin məqsədli və düşünülmüş qaydada şişirdilməsi demək idi.

İstanbul Konfransının yekunlarına qiymət verən tarixçi-alim İ.Musayev yazır ki, çarlığın təmsilçisi, İstanbuldakı rus səfiri, məşhur türk düşməni və erməni dostu kimi tanınan N. İqnatyevin hədələrlə konfransı tərk etməsi və A.Qorçakovun notası, habelə Rusiya və Avstriya-Macarıstan arasında tam məxfi Peştc sazişi (15.01.1877) və "altılar"ın London protokolu (31.03.1877) Osmanlı ətrafında cərəyan edən prosesləri daha da mürəkkəbləşdirirdi [7, 89].

Rusiya tarixşünaslığının araşdırılmasından aydın olur ki, planlarını başa çatdırmamış Konfrans iştirakçıları Rusiya nümayəndəsinin təklifi ilə Türkiyəni iştirakçı dövlətlərin qərarını qəbul etməyə məcbur etmişdir. Ancaq məlum olur ki, iştirakçı dövlətlər arasındakı fikir ayrılıqları fərqli mövqelər nümayiş etdirilməsinə səbəb olmuşdur. Belə ki, 15 yanvar 1877-ci ildə Budapeştdə imzalanmış gizli konvensiyaya görə, Rusiya Türkiyəyə qarşı müharibədə Avstriya-Macarıstanın bitərəfliyini təmin etmişdi. Bunun əvəzində isə Avstriya-Macarıstana Bosniya və Hersoqovinanı işğal etmək hüququ verilirdi. Bununla yanaşı, Avstriya-Macarıstan hərbi əməliyyatların Rumıniya, Serbiya, Bolqarıstan və Çernoqoriyaya yayılmayacağı barədə öhdəlik götürmüşdü. Rusiya da təqribən belə bir öhdəlik götürmüşdü [4, 37-38]. Müəlliflərin haqlı olaraq qeyd etdiyi kimi, bütün bunlar Osmanlı ətrafında cərəyan edən prosesləri daha da mürəkkəbləşdirmişdi. Əslində Rusiya ilə Avstriya-Macarıstan arasında bağlanmış bu gizli konvensiya Osmanlı imperiyasının bölünməsi haqqında müqavilə kimi qiymətləndirilməlidir.

Türkiyə tədqiqatçısı Necdet Sevinc hadisələrin xronoloji ardıcıllığını belə şərh edir: "Həqiqətən də, bir neçə dəfə sultana bağlı olan, Osmanlı vətənsevəri olduğunu ifadə etmək ehtiyacı hiss edən Patriarx Nerses və Erməni Məclisi Türk ordularının məğlub olmasını gördükdən sonra vaxt keçirmədən ruslarla əlaqə qurdular. Rus orduları Ədirnəyə girdikdən sonra Patriarx Nerses Varjabedian dərhal bir gizli təşkilat yaradaraq bu təşkilata Rus ordularının Baş Komandanı Böyük Nikolayla görüşməyə səlahiyyət verdi" [8, 100].

Digər Türkiyə tədqiqatçısı İlter Erdal "Ermeni Kilisesi ve Terör" adlı məqaləsində yazır ki, Patriarx bu nəticəyə (söhbət müstəqil Ermənistandan gedir-**Z.Ə.**) yetişmək üçün sadəcə ruslarla təmasda olmamışdır. Müharibədən bir il qabaq İngiltərə Kraliçası ilə İngiltərə Xarici İşlər Naziri Lord Derbiyə bir memorandum göndərərək "ermənilərə muxtariyyat verilməsini" istəyən Patriarxlıq müharibədən sonra bir daha İngiltərənin yeni Xarici İşlər Naziri Lord Solsberiyə baş çəkdi. Patriarx Vartabedian Solsberiyə yolladığı 1878-ci il aprel tarixli məktubunda səkkiz əsrdən bəri birlikdə yaşadıqları müsəlmanları lənətləyərək deyirdi ki, "ermənilərlə türklərin bir yerdə yaşamaqları artıq mümkün deyil. Bərabərlik, vicdan və ədalət prinsipini yalnız bir

xristian idarəçiliyi həyata keçirə bilər. Müsəlman idarəçiliyinin yerini yalnız xristian idarəçiliyi tutmalıdır. Ermənistan (Şərqi Anadolu nəzərdə tutulur – Z.Ə) və Kilikiya xristian idarəçiliyinin qurulması lazım olan yerlər sırasındadır. Türkiyə erməniləri bunu istəyirlər" [1, 224]. Tədqiqatçı Kamuran Gurun yazır ki, Patriarx İngiltərə Xarici İşlər Nazirinə yolladığı bu məktubdan bir ay əvvəl 17 mart 1878-ci ildə İngiltərənin İstanbuldakı Böyük Elçisi Henri Layardı ziyarət edərək "Şərqdə müstəqil bir Ermənistan istəyirik" demiş, Layardın bu təklifə hörmətsiz yanaşdığını görən kimi şantaja əl atmışdır: "Əgər siz yardım etməsəniz Rusiyaya müraciət edəcəyik"[3, 117]. Zənnimizcə, "müstəqillik uğrunda" mübarizə cəbhəsində çalışan erməni riyakarlığının nə qədər təhlükəli olduğunu bildirmək üçün bu məlumatlar yetərlidir.

Qeyd etmək lazımdır ki, Rus qoşunlarının Osmanlı ərazilərinə doğru irəliləməsi Avropa dövlətləri, xüsusilə İngiltərə tərəfindən müsbət qarşılanmadı. Bu da təbii idi. Çünki rus qoşunlarının belə irəliləyişi İstanbulun, bütövlükdə isə boğazların təhlükə altına alınması demək idi ki, bu da İngiltərənin həyati mənafeyinə daban-dabana zidd idi. Bildirmək lazımdır ki, hələ London protokolunun Türkiyə tərəfindən rədd edilməsindən sonra, daha dəqiq desək, Rusiyanın bunu bəhanə gətirərək Osmanlı hökumətinə müharibə elan etməsindən sonra (24 aprel 1877) İngiltərə kabinetində müəyyən fikir ayrılıqları meydana çıxmışdır. Məsələn, Rusiya tarixçiləri yazır ki, İngiltərənin baş naziri lord Bikonsfild Rusiyanın müharibə elan etməsinə Dardanelin işğalı ilə cavab verilməsini dəstəkləmişdi. Ancaq onun bu fikri kabinetin bir neçə nüfuzlu üzvü tərəfindən rəğbətlə qarşılanmadığından Rusiyanın Böyük Britaniyadakı səfiri Şuvalova nota verilməklə kifayətlənilmişdir [6, 40]. Məlumdur ki, 1877-ci il dekabrın 10-da Plevnanın ruslar tərəfindən tutulması İngiltərəni bir daha məsələləri yenidən nəzərdən keçirməyə sövq edirdi. Buna bir tərəfdən Rusiyanın böyük miqyasda qazandığı hərbi qələbələr təkan verirdisə, digər tərəfdən Qars, Batum, Ərdahan və Bəyazidin Rusiya tərəfindən işğal edilməsi, bir sözlə Rusiyanın boğazlara yaxınlaşması və hərbi gəmilərini boğazlardan keçirmək hüququnu əldə etməsi İngiltərəni xeyli rahatsız etmişdi. Adı çəkilən əsərdə isə Rusiyanın belə bir niyyətdə olmadığı vurğulanır. Orada oxuyuruq: "Dekabrın 13-də İngiltərə Rusiyanı xəbərdar etdi ki, Rusiya İstanbulu müvəqqəti işğal etsə də, o ehtiyat tədbirləri görəcəkdir. Qorçakov İngiltərəyə qəti cavab verdi: nə İstanbulu, nə də Hallipolu tutmaq Rusiyanın planında yoxdur. Bununla belə, Rusiya müharibənin gedişindən asılı olaraq Türkiyənin paytaxtını müvəqqəti işğal etməyəcəyinə tam təminat verə bilməz" [4, 42]. İngiltərənin belə mövqe nümayiş etdirməsi əsərdə Türkiyənin dövlətlərdən, xüsusilə İngiltərədən vasitəçilik etməsi kimi əks etdirilir. Təəssüflər olsun ki, həmin dövrə aid sənədlərin incələnməsi, xüsusilə həmin ərəfədə İngiltərə hökumətinin fasiləsiz məsələni müzakirəyə çıxarması onu deməyə əsas verir ki, gərginləşən "mövqe müharibəsi" İngiltərə hökumətini rahat buraxmırdı. Bütün bunları təsdiqləyən digər bir amil isə "fevralın 12-də admiral Xornbinin donanmanı Mərmərə dənizinə yeritmək haqqında əmr alması", yaxud "İngiltərə hökumətinin rus qoşunları İstanbula girən kimi Rusiya ilə diplomatik əlaqələri kəsəcəyini bildirməsi" [4, 44-45] hadisələrin gələcək inkişafının hansı məcrada cərəyan etməsindən xəbər verməsi kimi dəyərləndirə bilərik.

Türkiyə tarixşünaslığında erməni tarixinin qaynaqları, Ermənistanın coğrafiyası, ermənilərin etnoloji və antropoloji baxımından, eləcə də "erməni məsələsi"nin XIX əsrdən başlayaraq dünya dövlətlərinin daim diqqət mərkəzində olmasını araşdıran müəlliflərdən biri Esat Urasın da xidmətləri qeyd olunmalıdır. Müəllifin "Ta-

rihte Ermeniler ve Ermeni Meselesi" adlı tədqiqat işi bu baxımdan olduqca maraq kəsb edir. Ədirnə barışıq sazişindən sonra erməni patriarxı və doqquz yepiskopun Rusiya ilə əlbir fəaliyyəti, yəni onların Rusiya çarı II Aleksandra və Baş nazir A.Qorçakova ünvanladıqları 1878-ci 1/13 fevral tarixli müraciətləri haqqında müəllif yazır: "Ermənilər "zülm görmüşlər", "onların acılarına daima laqeyd qalan düşmənlər və zalım vəhşilər tərəfindən mühasirəyə alınmışlar", "Avropadan uzaq bir küncə atılmışlar", "digər xristian millətlərdən iki dəfə çox acı və iztirablar keçirərək yoxsul, səslərini eşitdirməyəcək bir durumdadırlar"[2, 200-202]. Göründüyü kimi, müraciətlər erməni xislətinə sadiq qalmaqla ənənəvi ruhda yazılmışdır. Maraqlıdır ki, sənədlərdə etiraflar da özünə yer almışdır. Məsələn, müəllif yazır ki, "türklərin qəhrəman və döyüşkən bir millət kimi tanınmaları", "türklərdə olduğu kimi ermənilərdə də ən böyük idarə adamları vardır", "təhsil ermənilərdə türklərdən daha çox yayılmışdır" və s. bu kimi ifadələr əsl etiraf nümunələri idi.

Esat Urasın adı çəkilən əsərindən aydın olur ki, sənədlərdə, ələlxüsus da A.Qorçakova göndərilən müraciətdə Türkiyə erməniləri üçün "ayrı qanunlar, qaydalar çıxarılacağına" əminlik ifadə olunur, çarın kölgəsində və milli iradə altında vətəndə (Ermənistanda) başqa bir dövlətin təzyiqləri xaricində yaşamaq arzu edilirdi. Bunların alınmayacağı təqdirdə daha ağır təhlükə ilə üzləşəcəkləri bildirilir və sonda isə hədsiz minnətdarlıq çatdırılırdı [2, 203].

Müzakirə-yazışmaların ana xəttini isə "erməni məsələsi"nin dövlətlərarası arenaya çıxarılması və onun həllində əsas sayılan aparıcı amillərdən birinə-dəstəkçi (himayəçi) xarici güc faktoruna tam aydınlıq gətirilməsi və bu sahədə vahid mövqe ortaya qoyulması təşkil edir. Ali rütbəli erməni ruhani xadimləri arasındakı bu görüş-müzakirələrin və yazışmaların materiallarından görünür ki, onlar "erməni məsələsi"nin ortaya çıxarılması üçün yaranan əlverişli fürsəti əsla qaçırmaq istəmirdilər. Bu fikir M.İzmirliyanın V.Manğuniyə məktubunda (13 fevral 1878) kifayət qədər aydın və dəqiq ifadə olunmuşdur. Məktubda vurğulanan bəzi məqamlar isə nəticə çıxarmağa vadar edir: "Zaman çox şeyləri dəyişdirir, şəraitə və şərtlərə uyğunlaşmağımız lazımdır; köhnə davranışımızı dəyişdirməli və çara müraciət etməliyik; bu gün Türkiyə böyük və əhəmiyyətli bir hissəsini itirmiş haldadır və Rusiyanın ayaqları altındadır; Asiya hissəsinə də bizim sahib olmağa çalışmağımız lazımdır; Türkiyə o qisimdə qalsa belə, bundan sonra Rusiyadan müti bir asılı olacaqdır" [2, 204].

E.Urasın erməni müəllifləri Saruhan, Tomayan və Leonun əsərlərindən əldə etdiyi məlumatlardan aydın olur ki, Ədirnə baş yepiskopu 1878-ci ilin fevralında patriarxın "erməni məsələsi" üçün ona müşavir göndərdiyi şəxslərlə (S.Arslanyan və O.Nuryanla) birlikdə rus təmsilçiləri ilə mühüm görüşlər keçirmişdir. Hətta böyük knyaz N.Nikolayeviç şəxsən geniş bir heyətlə Ədirnə kilsəsinə təşrif buyuraraq (8 fevral 1878) erməni dini-mülki təmsilçiləri ilə bəzi söhbətlər etmişdir. Bu müzakirələr zamanı ermənilərin qaldırdığı məsələlərin məğzində isə aşağıdakılar dayandığını söyləmək mümkündür:

1. Erməni tərəfi rusların tutduqları Osmanlı torpaqlarının boşaldılmamasını, ən başlıcası isə Van, Muş, Diyarbəkr, Ərzurum və b. ərazilərdən ibarət bir müstəqil Ermənistan yaradılmasını istəyirdi. Nəticə olaraq isə rus-türk danışıqlarının yekun sənədində (San-Stefano müqaviləsində) bu istənilənlərlə bağlı ayrıca maddənin özünə yer almasına çalışırdı;

2. Rusçukliyanın "...iztirab çəkən, əzilmiş erməni millətini unutmaması" xahişinə böyük knyaz "ermənilərin sevgi göstərmələrindən çox məmnun qaldığını", "... nə

rumlardan, nə də digər millətlərdən belə yaxşı qəbul görmədiyini" imperatora bildirdiyini, özünün və II Aleksandrın onları unutmayacaqlarını söyləmiş, ümidlərinin boşa çıxmayacağını vəd etmişdi [2, 204].

Esat Urasın tədqiqatlarından məlum olur ki, San-Stefano müqaviləsi ilə əlaqədar son müzakirələr və imzalanma proseduru Yeşilköydə-məşhur Osmanlı erməni ailəsi sayılan Dadyanlardan olan Arakelin evində icra edilmişdir. Tarixşünaslıqda bu proses zamanı iki mühüm məqam diqqət mərkəzində olduğundan onları işıqlandırmağı lazım bilirik.

Onlardan birincisi Rusiyanın "qəfildən" ermənilər üçün də bir maddə istəməsindən heyrətlənən Osmanlı diplomatlarının (qeyd etmək lazımdır ki, danışıqlarda Türkiyə nümayəndə heyəti Saffet paşanın rəhbərliyi ilə təmsil olunurdu [12, 235]) Türkiyədə "erməni məsələsi"nin olmamasını əsas tutaraq buna kəskin etirazları ilə əlaqədar idi. Bu etirazlar əks tərəfin, yəni böyük knyazın "erməni maddəsi"ni çarın mövqeyi-təlimatıyla "əsaslandırması" ilə aradan qalxmaq məcburiyyətində qaldı. Və az sonra da göz yaşları ilə əvəz olundu. İlter Erdal yazır ki, 3 mart 1878-ci il tarixində Osmanlı dövləti ilə Rusiya arasında San-Stefano müqaviləsi imzalananda Osmanlı Xarici İşlər Naziri Saffet Paşa göz yaşlarını saxlaya bilməmişdi. Müqavilənin 16-cı maddəsi ermənilərlə bağlı olaraq gündəliyə salınmışdı [1, 52].

İkinci və daha maraqlı məqam isə erməni xarakteri Arakel Dadyanın qızının böyük knyazdan etdiyi "xahiş" ilə bağlıdır. "Xahiş" isə nə az, nə çox-müqaviləyə ermənilərə dair maddənin salınmasından ibarət olmuşdu.

Bütün bu yuxarıda nəzərdən keçirdiyimiz hadisə və proseslərin ümumi axarında və nəticəsində beynəlxalq münasibətlərdə ilk dəfə olaraq diplomatik sənəddə, yəni San-Stefano müqaviləsində ermənilər üçün tarixi əhəmiyyət kəsb edən "məşhur" 16-cı maddə özünə yer aldı [11, Dosya no: 67, iç no: 80/4].

Həmin "erməni və ya İqnatyev maddəsi"ndə yazılırdı: "Ermənistanda (Şərqi Anadoluda) rus işğalı altında olan və Türkiyəyə geri veriləcək torpaqların rus əsgərləri tərəfindən boşaldılması oralarda Türkiyə və Rusiyanın yaxşı münasibətlərinə zərərli qarışıqlıqlara yol aça biləcəyindən, Babıalı ermənilərin yaşadıqları vilayətlərdə yerli durumun zəruri etdiyi islahatları vaxt itirmədən gerçəkləşdirməyi və ermənilərin kürd və çərkəzlərdən müdafiəsini öhdəsinə götürür" [12, 236].

E.Uras, C.Küçük və digərlərinin fikrincə, Osmanlı dövləti bu müqavilə ilə üç əsas məsələ də razılaşmağa məcbur edilirdi:

1) Ermənistan adlanan bir bölgə mövcuddur;

2) onun idarəçiliyi islahata möhtacdır;

3) ermənilərin təhlükəsizliyi kürdlər və çərkəzlər tərəfindən təhdid edilir.

C.Küçükə görə, San-Stefano sazişi az sonra imzalanan Berlin müqaviləsi ilə birlikdə Osmanlı üçün "Anadolu islahatı" adı altında yeni problemlər yaratmaqla əslində uzun sürən başağrısı - "erməni məsələsi"ni ortaya çıxarmış oldu [5, 4; 2, 208; 10, 124-125]. Beləliklə, göründüyü kimi, uzunömürlü "Şərq məsələsi"nin mühüm bir hissəsini təşkil edən və "sağalmaz yara" kimi bütün dünyanı narahat edən "erməni məsələsi" yaradıldı.

Beləliklə, sadalanan bu fikirlərdən məlum olur ki, San-Stefano müqaviləsi və onun XVI maddəsi ilə Rusiya geostrateji və regional maraqlarını xeyli gücləndirmiş, qarşıya qoyulan başlıca vəzifə ilə qazanılan hərbi və diplomatik üstünlüklərlə Qərb dövlətlərinin, ilk növbədə İngiltərənin bu ərazilərdə söz sahibi olmasına əngəl olmağa

çalışmışdır. Şübhəsiz ki, qeyd edilən belə hal Avropanın Osmanlı imperatorluğu ilə bağlı mühüm geostrateji maraqlarına zidd idi, xüsusilə 16-cı maddənin reallaşdırılmasının doğura biləcəyi tarixi nəticələrin qarşısının alınması zərurəti Avropanı düşünülmüş addım atmağa sürükləməyə bilməzdi.

## ƏDƏBİYYAT


1. Erdal İ. Ermeni Meselesi. 1780-1880. Ankara: TTK Yayınları, 1988, 240 s.
2. Esat U. Tarihte Ermeniler ve Ermeni Meselesi. İstanbul: Belge yayınları, 1987, 767 s.
3. Gurun K. Ermeni Dosyası. II Baskı. Ankara: Türk Tarih Kurumu Yayınları, 1983, 319 s.
4. История Дипломатии. Под ред. В.П.Потемкина. В 3-х т. Т. II. М.: ОГИЗ, 1945, 423 s.
5. Küçük C. Osmanlı Diplomasisinde Ermeni Meselesinin Ortaya Çıkışı. (1878-1897). II Baskı. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1986, 192 s.
6. Мамедов А. Попытки усиления Германии в Турции в конце XIX-начале XX века на материалах русской и германской историографии // журн. İntercultural Communications. Tbilisi, 2009, № 8, s. 107-116.
7. Musayev İ. Böyük dövlətlər və erməni məsələsi (XIX əsr). Bakı: İqtisad Universiteti, 2003, 238 s.
8. Sevinc N. Arşıv Belgeleriyle Tehcir Ermeni İddiaları ve Gerçekler. Ankara: Avrasiya Bir Vakfı Yayınları, 2003, 185 s.
9. Sonyel S. The Great War and The Tragedy of Anatolia. Ankara: Turkish Historical Society, 2000, 221 p.
10. Şimşir B.N. Ermeni Gailesinin Tarihsel Kökeni Üzerine // Ermeni Araştırmaları, sayı 1, Mart-Nisan-Mayis 2001, s.117-125.
11. Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arşivi (**BOA**) Hariciye Nezareti Evrak-ı , Karton-185, Dosya no: 67, iç no: 80/4.
12. Виноградов В.И. Русско-турецкая война 1877-1878 гг. и освобождение Болгарии. М.: Мысль, 1978, 295 s.


## ПОДДЕРЖКА СО СТОРОНЫ ВЕЛИКИХ ДЕРЖАВ «АРМЯНСКОГО ВОПРОСА» НА КОНФЕРЕНЦИИ В САН-СТЕФАНО


**З.Д.АМРАХОВ**


### РЕЗЮМЕ


В статье исследуются оправданные результаты Османской империи в русско-турецкой войне в 1877-1878 годах. Автор пытается показать ослабление Османской империи на территории между Средиземным морем и Персидским заливом. Царская Россия ставила перед собой главную цель и успешно использовала армян живущих в Османской империи, и на конференции в Сан-Стефано она смогла внести 16 статью, связанную с армянами.

Все это было объективно освещено на основе турецкого источниковедения.

## THE SUPPORT OF "THE ARMENIAN QUESTION" BY THE GREAT POWERS AT SAN-STEFANO CONFERENCE

**Z.J.AMRAHOV**

**SUMMARY**

The results of the Turkish-Russian war in 1877-1878 for Ottoman Empire are investigated in the article. The author makes a try to analyze Tsar Russia's efforts in this direction and shows that Russia's basic target was to weaken the influence of Ottoman Empire which was situated in the territory from the Mediterranean to the Persian Gulf. Therefore, Russia skilfully used the Armenians living in Ottoman Empire and managed to include the 16 th article related with the Armenians to San-Stefano treaty.

All these are objectively investigated on the basis of Turkish historiography.